# “Doğum günümü Qarabağda qeyd edəcəyəm...”

Mənə elə gəlir ki, yaxşılığa öyrənmiş və hər zaman başqalarını sevindirməyə çalışan insanlar xoşbəxt insanlardır, insanlığın fərqində olan, yaşamağı və yaşatmağı bacaran insanlardır. Həyatda rastlaşdığım belə insanlardan biri də Elçin Qaranzadə adına 270 nömrəli tam orta məktəbin direktoru Əli Bayraməli oğlu İsgəndərovdur. O, bizim kollektivimizə direktor təyin olunanda hamımız onu sıradan bir rəhbər kimi qarşıladıq. Düşündük ki, başqaları kimi o da əvvəlcə nələrəsə diqqəti daha çox yönəldəcək, bir qədər ciddi olacaq, sonra isə hər şey əvvəlki qaydada davam edəcək. Amma nə gördük: hər şeydən öncə, məkdəbdaxili nizam-intizam ciddiləşdirildi, neqativ hallar aradan qaldırıldı, hamıya: müəllimlərə, şagirdlərə, hətta valideynlərə də, açıq, şəffaf bir mühit yaradıldı. Təbii ki, bütün bunlar təhsilin keyfiyyətinin yüksəldilməsinə hesablanmışdı. Müəllimlərimiz yalnız dərs deməklə işlərini bitmiş hesab etməyib ictimai işlərdə də fəal mövqe tutmağa başladılar. İKT-nin nailiyyətlərindən daha səmərəli istifadə etmək məqsədilə respublikanın əməkdar müəllimi Güllü İsmayılovanın rəhbərliyi ilə innovativ məktəb yaradıldı. Məhz bunun sayəsində müəllimlərimiz sınaq qiymətləndirmədə uğurlu nəticələrə nail oldular. İctimai qurumlar yaradıldı, şagird elmi cəmiyyəti istedadlı, savadlı şagirdləri müəyyənləşdirib onların yazılarını məktəbin saytında yerləşdirdi, müxtəlif müsabiqələrə göndərdi. Məktəbdə gənc alimlərlə, yaradıcı adamlarla görüşlər təşkil olundu.

Möhtərəm Prezidentimiz İlham Əliyevin təşəbbüsü ilə elm adamları, elmi təşkilatlar ilə məktəblərin intensiv əlaqələrinin yaradılması, orta məktəblərdə kiçik akademiyaların formalaşdırılması bizi daha da ruhlandırdı. Təkcə öz məktəbimizdə deyil, bütövlükdə Hövsan qəsəbəsində və ətraf yaşayış məntəqələrində də kiçikyaşlı istedadlı uşaqlar üzə çıxarıldı və “Məktəbəqədər istedadlar” qrupu yaradıldı. Baxmayaraq ki, 2-5 yaşlı bu uşaqların sayı cəmi 4 nəfər idi, amma bu, təkcə bizim məktəbimiz üçün yox, bütövlükdə Bakı şəhərinin məktəbləri üçün yenilik idi. İşə başlayarkən bir ümidsizlik olsa da, nəticə uğurlu oldu. Məktəbimizin 30 illik yubiley tədbirində, təşkil olunan digər tədbirlərdə həmin uşaqların söylədikləri şeirlər, göstərdikləri səhnəciklər o qədər təbii və gözəl idi ki, bütün qonaqlar onları ayaq üstə alqışlayırdılar. Bu illərdə məktəbimizi bitirən 2400-dən çox məzunla ilk dəfə olaraq görüş keçirildi. Həmin görüşdə məzunlarımıza məktəbin 6 aylıq fəaliyyəti barədə məlumat verildi.

Keçirdiyimiz çoxsaylı görüşlərin, şübhəsiz ki, ən yaddaqalanı məktəbimizin fəxri məzunu, qürurla adını daşıdığımız Elçin Nəbi oğlu Qaranzadənin anadan olmasının 30 və təhsil ocağının isə 40 illik yubiley tədbirləri oldu. Bu tədbirlər özünəməxsus şəkildə, müxtəlif qonaqların iştirakı ilə keçirildi.

Məktəbin direktoru tədrisin vəziyyətini araşdırmaq üçün komissiya yaratdı. Bu komissiya fənlərin tədrisi vəziyyətini öyrənmək məqsədilə monitorinq keçirdi. Metodbirləşmələr arasında bir-birinə nümunə göstərmək meyli yarandı. Rəsm müəllimi Məhsəti Cəfərovanın rəhbərliyi ilə gənc rəssamlarımızın - şagirdlərimiz Abdulla Abdullayevin, Əyyub Məmmədovun, Leylan Cəfərzadənin əl işləri müxtəlif sərgi salonlarında nümayiş etdirildi. Musiqi müəllimi Mələk Bəndəliyevanın yaratdığı “Dalğa” ansamblı məktəbin tədbirlərinə zövq verdi, gənc bağbanlarımız məktəb ərazisinin gül-çiçəyə bürünməsində müəllimlərlə çiyin-çiyinə çalışdı, idmançılarımızın səsi təkcə ölkə yox, dünya miqyaslı yarışlardan gəldi.

Həmçinin XI sinif şagirdi Ülvi Qənizadə dünya və Avropa üçüncüsü, VI sinif şagirdi Cavid Məstanlı isə karate üzrə dünya çempionu oldu. Məktəb valideyn icması bizim əsl yardımçımıza çevrildi. Məhz bu qurumun köməyi ilə Qurban bayramında öz məktəbimizdən və ətraf məktəblərdən olan 84 nəfər valideyn himayəsindən məhrum və aztəminatlı ailələrdən olan uşaqlar üçün bayram süfrəsi açıldı, konsert təşkil olundu, hədiyyələr verildi.

Amma biz bütün bunlara asanlıqla nail olmadıq. Öncə, məktəbdə olan digər çatışmazlıqlar aradan qaldırıldı, pərakəndə vəziyyətdə olan sənədlər qaydaya salındı. Müəllimlərimiz çoxsaylı müsabiqə və yarışlara, o sıradan “Ən yaxşı müəllim” müsabiqəsinə qoşuldular.

Təsərrüfat işlərini qaydaya salmaq daha da gərgin oldu. İstifadəyə yararsız malların yığıldığı məktəb zirzəmisində səliqə-sahman yaradıldı, məktəbin həyətində gül-çiçək əkildi. Yarandığı gündən istilik sistemi və təbii ki, isti suyu olmayan ibtidai siniflər üçün nəzərdə tutulmuş korpus əsaslı şəkildə təmir olundu. Atıcılıq tiri yenidən təmir olunaraq şagirdlərin istifadəsinə verildi. Nasosxana üçün nəzərdə tutulmuş, əslində isə tör-töküntü məkanına çevrilmiş tikili abadlaşdırılaraq rəssamlıq dərnəyinin ixtiyarına verildi.

Şübhəsiz ki, bizə mane olmaq istəyənlər də az deyildi. Amma biz yolumuzdan dönmədik. Artıq çox şey nizama salınmışdır. Yüksək səviyyəli təhsilə zəmin yaranandan sonra hədəfimiz təhsilin keyfiyyəti oldu. “Uğurlu təhsil uğurlu gələcəkdir” devizi ilə fəaliyyət göstərən məktəbin başqa yolu da yoxdur. Bütün qüvvəmizi təhsilin keyfiyyətinin yüksəldilməsinə səfərbər etmişik. Məktəbəqədər hazırlıq kurslarımız da, məktəbdaxili sınaq qiymətləndirmələri də məhz buna yönəlmişdir. Artıq ilk nəticələr də əldə olunmaqdadır. Şagirdlərimiz olimpiadalarda, bilik yarışlarında uğurla çıxış edirlər. X sinif şagirdi Kənan Rəsulov və VIII sinif şagirdi Murad Təhməzov “Bilik yarışması”nın şəhər turuna vəsiqə qazanmışlar. Murad Təhməzov yarımfinala yüksəlmişdir. Bu yaxınlarda VI sinif şagirdi İlahə Ələkbərova inşa müsabiqəsində Suraxanı rayonu üzrə birinci yeri tutmuşdur. VIII sinif şagirdi Murad Təhməzov fizika fənni üzrə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin keçirdiyi “Fənn müsabiqəsi”nin qalibi oldu. İnanırıq ki, biz çox şeyə nail olacağıq. Çünki bizdə savadlı kadrlar, ən əsası isə aydın məqsəd var. Müəllimlərimiz durmadan öz üzərlərində işləyirlər. Azərbaycan dili və ədəbiyyat müəllimi Ülviyyə Şahbazovanın Bayraq meydanında dediyi “açıq dərs”i, rus dili müəllimi Ruhəngiz Mirzəyevanın “Su qoruqçuları” adlı beynəlxalq EKO dərsin keçirilməsindəki müvəffəqiyyəti məktəbimizin uğurlarına uğur qatdı.

Məktəbimizin komandası Bakı şəhəri ümumtəhsil və məktəbdənkənar təhsil müəssisələrinin VIII-X sinif şagirdləri arasında “Gənc fiziklərin yaradıcılıq müsabiqəsi”ndə rayon turunun qalibi olaraq II mərhələyə keçmişdir.

“Beynəlxalq təcrübə mübadiləsi təlim keyfiyyətini yüksəldən vasitə kimi” mövzusunda Ukraynanın Lvov şəhərində Vilayət Dövlət Departamentinin Elm və təhsil şöbəsi ilə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin birlikdə keçirdiyi II Beynəlxalq elmi-təcrübi konfransda məktəbimizin müəllimi Məhsəti Cəfərova “Kreativ düşüncənin formalaşması” mövzusunda məruzə etmiş və beynəlxalq sertifikata layiq görülmüşdür. M.Cəfərova həmin konfransda digər beynəlxalq sertifikatı “Multikulturalizm” mövzusundakı məruzəsinə görə almışdır. Bu konfransda həmçinin IX sinif şagirdi Leylan Cəfərzadənin rəsmləri də sərgilənmiş və o da beynəlxalq sertifikata layiq görülmüşdür. Həmçinin L.Cəfərzadənin əsərləri Ukraynanın Morşen şəhər məktəblərində də sərgilənmiş, Gürcüstan və Polşadan yeni dəvətlər almışdır.

Hiss edirik ki, qəsəbəmizdə məktəbimizin nüfuzu gündən-günə artır. Bu gün məktəbimizə şagird axını var. Biz isə maddi-texniki bazamızın imkan verdiyi qədər şagird qəbul edə bilirik. Bu il məktəbimizdə təhsil almaq üçün qeydiyyatdan keçmiş şagirdlərin yarıdan çoxunu başqa məktəblərə istiqamətləndirmək məcburiyyətində qaldıq. Məktəbimizə gəlmək istəyən şagirdlərin çoxluğunu nəzərə alıb, boş yerlərə yalnız müsabiqə yolu ilə şagird qəbul edirik. Bir sözlə, uğurlarımız çoxdur. Şübhəsiz, bütün bunlar kollektiv əməyin məhsuludur. Kollektivin rəhbəri Əli müəllim bir direktor, müəllim, vətəndaş kimi ölkə təhsili üçün, Vətən üçün, dövlət üçün mümkün olan hər şeyi uğurla yerinə yetirməkdədir.

Bu il yanvarın 20-də Əli müəllimin 60 yaşı tamam oldu. Bu da bir qismətdir... Əli müəllimə qədər də kollektivimizdə doğum günlərində bir-birini bir dəstə güllə, hətta yuvarlaq rəqəmlər olanda bir dilim tortla təbrik etmək ənənəsi var idi. Məktəbimizə direktor təyin olunanda doğum gününün 20 Yanvara təsadüf etdiyini öyrənincə, heç olmazsa, bir gün qabaqcadan onu təbrik etmək istədik. Məqsədimizi öyrənincə ağzımızı açmağa belə imkan vermədi: “Mən, - dedi, - öz doğum günümü Qarabağda qeyd edəcəyəm. Sadəcə onu deyə bilərəm ki, nə qədər ki, torpaqlarımız əsarətdədir, mən doğum günümü keçirməyəcək, heç bir kəsin təbrikini də qəbul etməyəcəyəm”. Hamı susdu. Bizi vəziyyətdən özü çıxartdı: “Başqa sözünüz yoxdursa, gedə bilərsiniz”, - dedi. Başımızı aşağı salıb otaqdan çıxdıq. Hərə öz işinin dalınca getdi.

**P.S.** *Bu yazını bitirmək mənim üçün çox çətindir. Kiçik bir yazını bitirməkdə heç vaxt olmadığı qədər çətinlik çəkirəm. Təkcə onu deyə bilərəm ki, Tanrı imkan versin ki, Əli müəllim öz doğum gününü ürəyi istəyən yerdə qeyd edə bilsin. Amin!*


**Xəyyam NƏBİYEV,**

*Bakı şəhəri E.Qaranzadə adına 270 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi*